# KİMYADAN ÇƏTİNLİYİ ARTIRILMIŞ MƏSƏLƏLƏRİN HƏLLİ

**M.M. Abbasov**
*AMEA Neft Kimya Prosesləri İnstitutu, p.e.d.*

**Ş.L.Quliyeva**
*Tovuz rayon Təhsil Şöbəsi*

**N.H.Mirzəyev**
*Tovuz rayonu Sarıtala kənd orta məktəbi*

**T.Ə.Mahmudov**
*Tovuz rayonu Çobansıxnaq kənd orta məktəbi*

Kimyanın tədrisində məsələ həllinin xüsusi əhəmiyyəti var. Məsələ həlli prosesində tədris materialı dərindən mənimsənilir və şagirdlərin müstəqilliyi maksimum surətdə təmin edilir.

Çətinliyi artırılmış məsələlərdə dərketmə və biliklərin yaradıcılıqla tətbiqi yüksək səviyyədə reallaşdırılır. Məsələlərin bu tipində məntiqi fikirləşmə, abstraktlaşdırma, biliklərin praktikada tətbiqi geniş miqyasda istifadə edilir.

Faktlar arasında yeni əlaqə formaları tapılır, kimyanın müxtəlif bölmələrindəki qanunauyğunluqlar və anlayışlar arasında əlaqə yaradılır. Nəhayət problemin həllinə aparır ideya tapılır. Lakin indiyə qədər məsələ həllinin dəqiq mexanizmi müəyyən edilməmişdir. Bunun birinci səbəbi şagirdlərin hər birinin fərdi xüsusiyyətlərə malik olmaları, ikincisi isə məsələlərin tipinin və çətinlik dərəcəsinin müxtəlif olmasıdır.

Çətinliyi artırılmış məsələlərdə fənlərarası əlaqə diqqət mərkəzində olur. Riyaziyyatdan, fizikadan və biologiyadan alınan biliklər kimyəvi prosesin mahiyyətini dərk edilməsində bir növ açar rolunu oynayır. Məsələnin bu tipindən əsasən dərsdən xaric məşğələlərdə və olimpiadalara hazırlıq prosesində istifadə edilir.

Müşahidələr göstərir ki, kimya müəllimlərinin bəziləri, xüsusilə gənc müəllimlər çətinliyi artırılmış məsələləri həll etməkdə çətinlik çəkirlər.

Bunları nəzərə alaraq jurnalımız vasitəsilə bu tip məsələlərin bir neçəsinin həlli üsulu ilə həmkarlarımızı tanış edirik.

**Məsələ 1.**

Maddənin 1 kq-da 0.3227q elektron var. Maddənin formulunu təyin edin, (Elektron kütləsi atom kütlə vahidinin $\frac{1}{1823}$ -nə barəbərdir)

**Həlli.** Atom kütlə vahidi $1{,}66\cdot10^{-24}$ qramdır.

$$\frac{1{,}66\cdot10^{-24}}{1823}=\frac{0{,}3227}{9{,}1\cdot10^{-28}}=\frac{32{,}27\cdot10^{-2}}{9{,}1\cdot10^{-28}}3{,}55\cdot10^{26}\ \text{elektron.}$$

Protonların sayı da $3{,}55\cdot10^{26}$-ya bərabərdir. Maddədəki proton və neytronların kütləsi:

$1000q-0{,}3227q=999{,}6773q$ (proton və neytron)

Protonların birlikdə kütləsi

$1{,}67\cdot10^{-24}\cdot3{,}55\cdot10^{26}=5{,}9285\cdot10^{2}=592{,}85$ qram proton

$999{,}6773-592{,}85(p)=406{,}8273q$ neytron. Neytronun kütləsi $1{,}67\cdot10^{-24}$ qramdır.

Maddədə olan neytronların sayını tapaq:

$$\frac{406{,}8273}{1{,}67\cdot10^{-24}}=243{,}6\cdot10^{24}=2{,}436\cdot10^{26}\text{neytron}$$

Proton, elektron və neytronların sayının nisbəti

$$3{,}55\cdot10^{26}(p):3{,}55\cdot10^{26}(e):2{,}436\cdot10^{26}(n)=3{,}55:3{,}55:2{,}436=10(p):10(e):7(n)$$

Bunlar ammonyaka uyğun gəlir, onun 1 molekulunda 10 proton, 10 elektron və 7 neytron var.

**Məsələ 2.**

Kalium-bixromatın suda həllolması $70^0C$-də 36,2%, $0^0C$-də 4,43% -dir. Kristallaşdırma yolu ilə 10 q təmiz kalium-bixromat almaq üçün nə qədər duz və su götürmək lazımdır.

**Həlli:**

**I üsul.** Təmiz $K_2Cr_2O_7$ almaq üçün məhlul $70^0C$-dən $0^0C$-yə qədər soyudulmalıdır.

$70^0C$-də 100-36,2 $(K_2Cr_2O_7)=63{,}89(H_2O)$

$0^0C$-də 100-4,43 $(K_2Cr_2O_7)=95{,}57q(H_2O)$ Məhlulu $70^0C$-dən $0^0C$-yə qədər soyutduqda

$95{,}57q$ suda $4{,}43q\ K_2Cr_2O_7$ həll olur.

$63{,}8q$ *suda* __________ $x$ həll olur.

$x=2{,}957q\ \ K_2Cr_2O_7$

İlkin məhlulda 36,2 $K_2C_2O_7$ var.

$36{,}2-2{,}957=33{,}24q\ \ K_2Cr_2O_7$ kristallaşır.

33,24 q təmiz $K_2Cr_2O_7$ almaq üçün 36,4 q $K_2Cr_2O_7$ sərf olunur.

10 q $K_2Cr_2O_7$ ________________ $x$

$x = 10,9q\ K_2Cr_2O_7$ sərf olunur.

33,24q__________63,8 q $H_2O$

$10q$______________ $x$

$x = 19,2qH_2O$

**II üsul**. Fərz edək ki, $x$ qram $K_2Cr_2O_7$ götürülüb. $70^0C$ -də 100-36,2=63,8 q $H_2O$

$36,2(K_2Cr_2O_7)$________ $63,8q(H_20)$

$X$ _____________ $n_1$

$$n_1 = \frac{63,8x}{36,2} = 1,7624x\,qram(H_2O)$$

$0^0C$ -də $100 - 4,43(K_2Cr_2O_7) = 95,57q(H_2O)$

$95,57q \quad H_2O$________ $4,43 \quad (K_2Cr_2O_7)$

$0^0C$ -də $1,7624xH_2O - da$____________ $n_2(K_2Cr_2O_7)$

$$n_2 = \frac{1,7624x \cdot 4,43}{95,57} = 0,9183x$$ qram $K_2Cr_2O_7$ məhluldan ayrılır, kristallaşır.

Deməli $0,9183x\,qram\ K_2Cr_2O_7$ almaq üçün x qram $K_2Cr_2O_7$ lazımdır.

$10\,qram\,K_2Cr_2O_7$ ______________ $n_3$

$$n_3 = \frac{10 \cdot x}{0,9183x} = 10,9q\ K_2Cr_2O_7$$

$0,9183x\,qram\,K_2Cr_2O_7$ almaq üçün $1,7624x \quad H_2O$

*10*_______________________ $n_4$

$$n_4 = \frac{10 \cdot 1,7624x}{0,9183x} = 19,2q\ H_2O$$

**Məsələ 3**. İkivalentli metalın karbonatının 81,2 qramını havada qızdırdıqda alınan bərk qalığın kütləsi metalın nisbi atom kütləsinə bərabər olmuşdur. Karbonatın formulunu təyin edin.

**Həlli:**

Reaksiya tənliyi.

$$MeCO_3 \overset{t}{=} MeO + CO_2 \uparrow$$

(Me+60) qram karbonatdan (Me+16) qram oksid alınır.

$81{,}2____________ Me$ "____"

$$Me(Me+60)=81{,}2\,(Me+16)$$

$$Me^2+60Me=81{,}2Me+1299{,}2$$

$$Me^2-21{,}2Me-1299{,}2=0$$

$$M_{1;2}=\frac{21{,}2\pm\sqrt{21{,}2^2+4\cdot1299{,}2}}{2}=\frac{21{,}2\pm75}{2}$$

$$Me_1=\frac{21{,}2+75}{2}=48{,}1$$

$$Me_2=\frac{21{,}2-75}{2}=-27$$

$M_1=48$ formal alaraq titana uyğun gəlir. İkivalentli titan birləşmələri davamsızdır. Sürətlə oksidləşirlər. Ona görə də məsələnin həllini düzgün hesab etmək olmaz. Belə hesab etmək olar ki, ikivalentli metalın karbonatını havada qızdırdıqda üçvalentli oksid alınmışdır:

$$4MeCO_3+O_2=2Me_2O_3+4CO_2$$

Məsələnin şərtinə əsasən

$2(Me+60)________(2Me+48)$

$81{,}2__________ Me$

$$2Me^2+120Me=162{,}Me+3897{,}6$$

$$2Me^2-42{,}4Me=3897{,}6=0$$

$$M_{1;2}=\frac{42{,}4\pm\sqrt{42{,}4^2+4\cdot2\cdot3897{,}6}}{2\cdot2}=\frac{42{,}4\pm181{,}6}{4}$$

$$Me_1=\frac{42{,}4+181{,}6}{4}=56\,(Fe)$$

**Reaksiya tənliyi**

$$4FeCO_3+O_2=2Fe_2O_3+4CO_2$$

**Məsələ 4.** Doymuş duz məhlulunu $t_1$ temperaturdan $t_2$ temperatura qədər soyutduqda duzun həllolması d dəfə azaldı. İlkin duzun kütləsinin hansı hissəsi çöküntü şəkilində ayrılmışdır?

Duzun həllolmasını $t_1$ temperaturda S ilə işarə edək $t_2$ temperaturda

həllolma $\frac{S}{a}$ olar. Fərz edək ki, ilkin məhlulda 100 qram su var. Son məhlulda da 100 q su olacaq. Ona görə ki, məhlulu soyutduqda duz çöküntü halında ayrılır. $t_1$ temperaturda 100 q suda S qram duz həll olur, $t_2$ temperaturda $\frac{S}{a}$ qram duz həll olur. Bunların fərqi yəni $S-\frac{S}{d}$ qram duz çöküntü halında ayrılır. Çöküntü halında ayrılan duzun kütlə payı, çöküntünün kütləsinin ilkin duzun kütləsinə olan nisbətinə bərabərdir.

$$\frac{m(\text{çöküntü})}{m(duz)}=\frac{S-\frac{s}{d}}{S}=\frac{\frac{as-s}{a}}{s}=\frac{\frac{s(a-1)}{a}}{S}=\frac{a-1}{d}$$

**Məsələ 5.** Üçvalentli metalın karbidi və asetilenindi qarışığının 5,44 qramına artıqlaması ilə götürülən xlorid turşusu ilə təsir etdikdə 2,7 *l* (n.ş-də) qaz qarışığı ayrılıb. Qaz qarışığı gümüş(I)oksidin ammonyakdakı məhlulundan keçirdikdə həcmi iki dəfə azalmışdır. İlkin qarışığın tərkibini və naməlum metalı təyin edin.

**Həlli:**

Karbidin formulu $Me(C_2)_3$ asetilenindin formulu $Me_2(C_2)_3$

Reaksiya tənlikləri.

$$Me_4(C_2)_3+12HCl=4MeCl_3+3CH_4$$

$$Me_2(C_2)_3+6HCl=2MeCl_3+3HC=CH$$

$$HC\equiv CH+2[Ag(NH_3)_2]OH\rightarrow Ag\cdot C=C-Ag+2H_2O+4NA_3$$

Qaz qarışığı $\frac{2,7\,l}{22,4\,l}=0,12$ mol edir.

Reaksiya tənliklərinə əsasən 6 mol qaz qarışığı alınmasına 2 mol karbid və asetilenid qarışığı sərf edilib.

0,12 mol üçün $\frac{0,12\cdot 2}{6}=0,04$ mol qarışıq sərf edilib. İlkin qarışıq 0,02 mol $Me_4C_3$ və 0,02 mol $Me_2(C_2)_3$ -dən ibarətdir.

$$4(Me+36)0,02+(2Me+72)0,02=5,44$$

$$0,08Me+0,72+0,04Me+1,44=5,44$$

$$0,12Me=3,28$$

$$Me=27(Al)$$

$m(Al_4C_3) = 144 \cdot 0{,}02 = 2{,}88q$

$m(Al_2(C_2)_3) = 126 \cdot 0{,}02 = 2{,}52q$

**Məsələ 6.** Kalium-bixromatla sulfat turşusu qarışığı məhlulu (xrom qarışığı) narıncı rənglidir. Qarışığı qızdırdıqda yaşıl olur. Soyutduqda isə əvvəlki rəngini alır.

Bunun səbəbini izah edin.

**Həlli:**

Kalium-bixromatla sulfat turşusu qarşılıqlı təsirdə olur. Aşağıdakı ardıcıl proseslər nəticəsində yaşıl rəngli xrom (III) sulfat əmələ gəlir.

$$K_2Cr_2O_7 + H_2SO_4 = K_2SO_4 + H_2Cr_2O_7$$

$$H_2Cr_2O_7 \Rightarrow 2CrO_3 + H_2O$$

$$2CrO_3 = Cr_2O_3 + 3[O]$$

$$Cr_2O_3 + 3H_2SO_4 = Cr_2(SO_4)_4 + 3H_2O$$

Oksidləşmə dərəcəsi +3 olan xrom ionu $Cr^{3+}$ məhlulda hidratlaşmış formada olur. $[Cr(H_2O]_6^{3+}$ tünd hidratlaşmış formada olur: $[Cr(H_2O)_6]^{3+}$ - qızdırdıqda yaşıl rəngli kompleks əmələ gəlir: $Cr(H_2O)_5SO_4^{\ +}$. Sonra otaq temperaturunda yaşıl kompleks tədricən parçalanır. Xrom qarışığı $(K_2Cr_2O_7 + H_2SO_4)$ qüvvətli oksidləşdirici olduğundan xrom-(III)sulfatı oksidləşdirir, məhlulun əvvəlki (narıncı) rəngi bərpa olunur.

**Məsələ 7.**

Natrium-xloridin sıxlığı 2,165 q/sm$^3$-dir. Onun kristalında elementar kubun tilinin uzunluğu $2{,}814 \cdot 10^{-8} sm - dir$. Bunlara əsasən Avoqadro ədədini hesablayın.

**Həlli:**

M(NaCl) = 58, 45q/mol. Duzun bir molunun həcmi

$$\frac{58{,}45q/mol}{2{,}165q/sm^3} = 27{,}00sm^3$$

Natrium-xloridin kristalında elementar kubda yəni bir kubda dörd natrium ionu və dörd xlorid ionu var. Bu ionlar kubun kristalının təpələrində yerləşmişlər. Əslində ayrılıqda bir kuba həmin ionların hər birinin $\frac{1}{8} - i$ düşür. Bir mol NaCl-də bir natrium ionu və bir xlorid ionunun həcmini hesablayaq. Kubun tilinin

uzunluğu $d^3 = (2{,}814 \cdot 10^{-8})^3$

Bir natrium və bir xlorid ionların həcmi

$$2d^3 = 2(2{,}814 \cdot 10^{-8})^3 = 2 \cdot 22{,}283 \cdot 10^{-24} = 44{,}566 \cdot 10^{-24} = 4{,}457 \cdot 10^{-23}\, sm^3$$

Bu duzun kristalında elementar quruluş vahidinin birinin həcmidir.

Bir molda olan quruluş vahidlərinin cəmi $N = \dfrac{27\, sm^3}{4{,}457 \cdot 10^{-23}} = 6{,}058 \cdot 10^{23}$ quruluş vahidi bir molda.

**Məsələ 8.** Eritrit mineralı kütlə ilə 29,55% naməlum elementdən, 25% arsendən, 42,8% oksigendən və 2,7% hidrogendən ibarətdir. Mineralın formulunu təyin edin.

**Həlli:** Naməlum elementin nisbi atom kütləsi x-lə, elementlərin atomlarının sayını n-lə işarə edək.

$$n_1 : n_2 : n_3 : n_4 = \frac{29{,}55}{x} : \frac{25}{75} : \frac{42{,}8}{16} : \frac{2{,}7}{1}$$

Buradan $\dfrac{29{,}55}{xn_1} = \dfrac{25}{75n_2} = \dfrac{25}{75n_2} = \dfrac{42{,}8}{16n} = \dfrac{2{,}7}{n_4}$

Arsenin miqdarı ən azdır. Onun atomlarının sayını 1-ə bərabər hesab edək ($n_2$=1) və digər elementlərin miqdarını arsenin miqdarına bölək:

$$n_3 = \frac{\frac{42;8}{16}}{\frac{25}{75}} = \frac{42{,}8 \cdot 75}{16 \cdot 25} = \frac{3210}{400} = 8\ (0)$$

$$n_4 = \frac{\frac{2{,}7}{1}}{\frac{25}{75}} = \frac{2{,}7 \cdot 75}{25} = \frac{202{,}5}{26} = 8\ (H)$$

$$\frac{\frac{29{,}55}{xn_1}}{\frac{25}{75}} = \frac{29{,}55 \cdot 75}{25 \cdot xn_1} \Rightarrow xn_1 = 88{,}65$$

$n_1 = 1$ olduqda $x = 88{,}65$ belə element yoxdur.

$n_1 = 2$ olduqda $x = 44{,}325$ “________”

$n_1 = 3$ olduqda $x = 29{,}55$ “________”

Ona gör də nəticələri iki dəfə artıraq.

$As = 2;\ 0 = 16;\ H = 16\ \ xn_1 = 88{,}65 \cdot 2 = 177{,}3$

$n = 3$ olduqda $x = 59$ (Co) olur

$Co_3As_2O_{16}H \Rightarrow Co_3(ASO_4) \cdot 8H_2O$ eritrit mineralı

**Məsələ 9.** Qələvi metalın halogenidinin $35{,}6\% - li$ məhlulunun 50 qramına 10 qram gümüş-nifrat əlavə edilmişdir. Çöküntü əmələ gəlməsi dayandıqdan sonra halogenidin ilkin qatılığı 1,2 dəfə azalmışdır. Naməlum halogenindi təyin edin.

**Həlli:** İlkin məhlulda halogenidin kütləsi

100_____35,6

50______x

$/ x = \dfrac{50 \cdot 35{,}6}{100} = 17{,}8q(MeH)$

Fərz edək ki, halogenid qələvi metallardan birinin xlorla əmələ gətirdiyi duzdur.

$MeCl + AgNO_3 = AgCl \downarrow + MeNO_3$

170_____143,5/ $\quad x = \dfrac{10 \cdot 143{,}5}{170} = 8{,}44$

10______x

Reaksiyadan sonra məhlulun kütləsi

$50 + 10 - 8{,}44 = 51{,}56$ *qram*

Reaksiyadan sonra məhlulda halogenidin qatılığı $\dfrac{35{,}6}{1{,}2} = 29{,}7$

Fərz edək ki, gümüş-nitratla reaksiyaya x qram halogenid MeCl sərd edilib. Buna əsasən aşağıdakı tənasübü yazmaq olar.

*51,56_______17,8-x*

*1530,8=1780-100z*

*100x=249,2*

*X=2,5 MeCl* reaksiyaya daxil olub

*10 ($AgNO_3$)______2,5 (MeCl)*

*170 ($AgNo_3$)_____Me+35,5*

*355+10Me=425*

*10Me=70*

*Me=7 (Li)*

Halogenidin formulu *LiCl*

**Məsələ 10.** Yod həyat üçün vacib elementlərdəndir. O, qalxanabənzər vəzidə daha çox toplanmışdır. Orqanizmdə olan yodun təqribən yarısı qalxanabənzər

vəzidədir. Həmin vəzin kütləsini 25 q, insan çəkisini 70 kq qəbul edərək, yodun kütlə payının insan orqanizminə nisbətən qalxanabənzər vəzidə neçə dəfə çox olduğunu hesablayın.

**Həlli:** bütövlükdə insan orqanizmində (qalxanabənzər vəzidə olmaqla) olan yodun miqdarı da 0,5 x edir. Bunların hər birinin neçə faiz etdiyini hesablayaq:

25________ 0,5 yod var

100_______ $n_2$

"___"/x=2xq ($J_2$)

70 kq=70000 q

70000__________ 0,5x yod var.

100 ___________ $n_2$ *$/ n_2=0,000714xq\ (J_2)$*

Qalxanabənzər vəzidə olan yodun miqdarının (2x) orqanizmdə olan yoddan (0,000714x) neçə dəfə çox olduğunu tapaq:

$$\frac{2x}{0,0007142x} = 2800,336 \text{ dəfə çoxdur.}$$

**Məsələ 11.** Kalium-bromid və ya yodun qarışığının məhluluna bromlu su əlavə edilmişdir. Məhlulu buxarlandırdıqdan sonra alınan qalığın kütləsi duzların ilkin qarışığının kütləsindən m qram az olmuşdur. Alınan bərk qalıq yenidən suda həll edilmişdir və məhluldan xlor buraxılmışdır. Buxarlandırıb və közərtdikdən sonra alınan maddənin kütləsi birinci təcrübədə alınandan m q az olmuşdur. İlkin qarışıqda duzların kütlə payını hesablayın.

**Həlli:**

Fərz edək ki, ilkin qarışıq x qram KJ və y qram KBr-dən ibarətdir. x+y=100 (1)

Qarışığa bromla təsir etdikdə yod əvəz olunur.

$$2KJ + Br_2 = 2KBr + J_2$$

$$M(KBr) = 119q/mol \quad M(KJ) = 166q/mol$$

$166(KJ)$__________________ $47\ q$ azalma olur.

$X(KJ)$___________ $m$ "______"

$$m = \frac{47x}{166} = 0,283x$$

İlkin qarışığa bromla təsir etdikdən sonra qalıq y qram KBr-dən və x qram kaliumyodidə bromla təsir etdikdən alınan KBr-dən ibarətdir. Reaksiya tənliyinə (1) əsasən

$166(KJ)$ -dən ___ 119 KBr alınır.

$X(KJ)$ -dən $n_1$ *KBr* alınır.

$$2KBr + Cl_2 = 2KCl + Br_2 \quad (2)$$

$$M(KCl) = 74,5q(mol)$$

$119-74{,}5=44{,}5q$ azalma

Reaksiya tənliyinə (2) əsasən:

$119(KBr)$_________44,5 $q$ azalma uyğundur.

$y(KBr)$_______$n_2$

$n_2=\frac{44{,}5y}{119}=0{,}37395y$ azalma olur.

$119(KBr)$_________44,5 $q$ azalma müvafiqdir.

$0{,}71687x(KBr)$___________$n_3$ “_______”

$n_3=\frac{0{,}71687x\cdot 44{,}5}{119}=268x$ azalma olur.

Məsələnin şərtinə əsasən $m=n_2+n_3$

Bunların qiymətlərinin yerinə yazaq.

$0{,}283x=0{,}37395y+0{,}268x$

1 və 2-ci tənliklərdən sistem alınır.

$$\begin{cases}x+y=100\\0{,}283x=0{,}37395y+0{,}268x\end{cases}$$

x=100-y

$0{,}015(100-y)=0{,}37395y$

$1{,}5-0{,}015y=0{,}37395y$

$1{,}5=0{,}38895y$

$y=3{,}86\%\ (KJ)$

$100-3{,}86=96{,}14\%\ (KBr)$

**Məsələ 12.** Yer qabığının hər kub kilometrində $10^8$ ton dəmir var. Yer səthindən 16 km dərinliyə qədər olan hissə yer qabığı hesab edilir. Yer qabığında dəmir ehtiyatını hesablayın. Yer kürəsinin radiusunu təqribən 6400 km hesab etmək olar.

**Həlli:**

Yer kürəsinin həcmi:

$$V_1=\frac{4}{3}\pi r^3=\frac{4}{3}\cdot 3{,}14\cdot\left(6{,}4\cdot 10^3\right)^3=1{,}3333\cdot 3{,}14\cdot\left(6{,}4\cdot 10^3\right)^3=$$

$$=4{,}1856\cdot 262{,}144\cdot 10^9=10972300\cdot 10^5 km^3$$

Yer kürəsinin radiusu 6400-16=6384 km olan hissəsinin həcmi:

$$V_2=\frac{4}{3}\pi r^3=1{,}3333\cdot 3{,}14\cdot\left(6{,}384\cdot 10^3\right)^3=4{,}1856\cdot 260{,}2\cdot 10^9=1088{,}937\cdot 10^9=10889370\cdot 10^5 km^3$$

$(V_1 - V_2)$ fərqi yer qabığının həcmidir.

$10972300 \cdot 10^5 km^3 - 10889370 \cdot 10^5 km^3 = 83930 \cdot 10^5 km^3 = 8{,}393 \cdot 10^9 km^3$

Yer qabığında dəmirin ehtiyatı

$$\frac{8{,}393 \cdot 10^9 km^3 \cdot 10^8 \, ton}{1 km^3} = 8{,}393 \cdot 10^{17} \, ton \; (Fe)$$

**Məsələ 13.** Möhkəm materialdan hazırlanan, həcmi böyük olmayan qab ağzına qədər naməlum maye ilə doldurulub və kip bağlanmışdır. Müəyyən vaxtdan sonra qabın ağzını açdıqda fışıltı ilə qaz çıxmışdır. Həmin qazı közərmiş maqnezium tozu üzərindən buraxdıqda həcmi İlkin həcminin $\frac{4}{5}$-nə qədər azalmışdır. Qabdakı maye nədir?

**Həlli:**

Qabdakı maye ağır sudur. T$_2$O Tritium $^3T \rightarrow {}^3He + \beta$ tənliyi üzrə parçalanır. Onun yarımparçalanması dövrü 12,5ildir. Belə hesab etmək olar ki, maye qabda kifayət qədər uzun müddət saxlanmışdır. Ağır su aşağıdakı tənlik üzrə parçalanmışdır.

$2T_2O \rightarrow 4\,{}^3He + O_2$

Alınan qaz qarışığının $\frac{4}{5}$ hissəsini $^3He$ təşkil edir. Maqneziumla oksigen birləşir. İlkin həcminin $\frac{4}{5}$-nə qədər azalmışdır.

**Məsələ 14.** A mayesinin suda məhlulu olan qabdan b qazını buraxdıqda C qazı ayrılmışdır və qabda təmiz su qalmışdır. Maddələri adlandırın, reaksiya tənliyini yazın.

**Həlli:**

$A - H_2O_2; \quad B - O_3; \quad C - O_2$

$H_2O_2 + O_3 \Rightarrow H_2O +_2 O_2$

**İstifadə edilmiş ədəbiyyat:**


1. Abbasov V.M., Abbasov M.M. və b. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün kimyadan dərslik. Bakı, Azpoliqraf, 2010, 127 səh.
2. Abbasov V.M., Abbasov M.M. və b. Ümumtəhsil məktəblərinin IX sinfi üçün kimyadan dərslik. Bakı, Azpoliqraf, 2010, 127 səh.

***M.M. Аббасов, Ш.Л. Кулиева, Н.Г. Мирзаев, Т.А. Махмудов***

**Решение осложненных задач по химии**

**АННОТАЦИЯ**

Цель урока разработка усвоения учебного материала и методике преподавания в решение задач и выработке ролы самостоятельности у учеников.

***M.M. Abbasov, Sh.L.Guliyeva, N.H. Mirzayev, T.A. Mahmudov***

**Solution of complicated issue in chemistry**

**ANNOTATION**

The aim of the lesson is consists of independent role of pupils' in learning of teaching materials by the methods of issue solution.

**Açar sözlər:** fənlərarası əlaqə, fəndaxili əlaqə, kimyəvi formul, həllolma, parçalanma

**Ключевые слова:** межпредметные связи, внутрипредметные связи, химическая формула, решение, разложение.

**Key words:** inter-subjects links, intra-subjects links, chemical formula, solution, decomposition.